# Güləmail MURAD - 70



Hörmətli Güləmail xanım!

Sizi - tanınmış şairi yubileyiniz münasibətilə təbrik edirik.

Siz yaradıcılığa altmışıncı illərin sonunda başlamısınız. İlk qələm təcrübələriniz tələbə ikən "Neft kadrları uğrunda" qəzetində işıq üzü görmüşdür. 1973-cü ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetini bitirib əmək fəaliyyətinə başlamısınız. Uzun illər Neft və Energetika Kollecində ixtisas fənnindən dərs demisiniz.

Ədəbi ictimaiyyətin maraqla qarşıladığı "Güldüm göynəyə-göynəyə", "Sənli-sənsiz", "Gecələr ulduzlar üstümə tökülür" kimi şeir kitablarının müəllifisiniz. Lirik şeirlər müəllifi kimi tanınsanız da, Qarabağ münaqişəsi başlayandan yaradıcılığınızda ictimai mövzulara geniş yer vermiş, qələminizi silaha çevirmisiniz. İşğalçıları ifşa edən, torpaqlarımız uğrunda canından keçən döyüşçülərimizin igidliyini vəsf edən şeirlər yazmısınız. "Qarabağ harayı" kitabı dünyaya səsləniş, "Vətən sağ olsun" torpaq yolunda öldü var, döndü yoxdur demək idi. "Dağlarda şəhid səsi" bir savaşa çağırış, "Qayıdış" kitabınız qələbəmizin işartısı idi. Aprel döyüşlərinin üç qəhrəmanından bəhs edən "Aprel döyüşləri", "Qəhrəmanlıq yüksəkliyi", ordumuzun Günnütdəki uğurunu işıqlandıran "Günnüt zəfəri" kimi kitablarınız sizə daha geniş oxucu auditoriyası qazandırdı. Tovuz döyüşləri və ardınca baş verən Vətən müharibəsi sizi daha da ruhlandırmış, nəticədə bir ildə dörd kitab ərsəyə gətirmisiniz. Siz hərb tariximizə də zaman-zaman müraciət edir, yaddaşları təzələyirsiniz. "Döyüş yolları" poemanız bu qəbildəndir. Siz ənənənizə sadiq qalaraq lirik, aşıq şeiri üslubunda şeirlər yazmağa davam edirsiniz. Bir neçə şeir toplusu çap etdirmisiniz. Yapon ədəbiyyatına xas hayku və vakaladan ibarət "Mən bulud gözlü, sən yağış. Hayku və vakalar" adlı kitabınız keçən il nəşr olunub. Hərbi-vətənpərvərlik mövzusunda qələmə aldığınız əsərləriniz forması ilə də diqqəti cəlb edir, publisistik mətnlər arada şeirlə əvəz olunur, bu əsərin təsir qüvvəsini daha da gücləndirir. Şeirləriniz türk, fransız, ingilis, ərəb, rus dillərinə tərcümə olunmuş, sözlərinizə hərbi marşlar bəstələnmişdir.

Ədəbi uğurlarınıza görə "Əliağa Şıxlinski" medalı, Rəsul Rza mükafatı, "Böyük Vətən müharibəsinin 75 illiyi" Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin I və II dərəcəli diplomları, bir çox beynəlxalq mükafatlara layiq görülmüsünüz.

Hörmətli Güləmail xanım!

Sizi yubileyiniz münasibətilə bir daha təbrik edir, sizə uzun ömür, cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 18 dekabr.- 2021-ci il.- S. 27.